# 2024-CÜ İL ÜZRƏ BNF İCAZƏLƏRİNİN BÖLGÜSÜ ÜZRƏ TƏLƏB OLUNAN SƏNƏDLƏR

Bölgüdə iştirakla bağlı **Operator** tərəfindən yazılan Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

**Şirkətə dair**

1. Daşıyıcı taxoqraf kartının surəti
2. Yalnız bir avtonəqliyyat vasitəsinə malik olduqda, 9000 (doqquz min) avro, iki və daha çox avtonəqliyyat vasitəsinə malik olduqda, hər əlavə avtonəqliyyat vasitəsi üçün 5000 (beş min) avro aktivlərə (pul vəsaitlərinə, depozitlərə və digər aktivlərə) malik olması barədə kənar (müstəqil) auditor tərəfindən təsdiq edilən son hesabat dövrünə aid maliyyə hesabatları, aktivləri barədə məlumatı və ya maliyyə vəziyyəti barədə bank arayışı

**Avtonəqliyyat vasitələrinə dair**

1. Dövlət qeydiyyat şəhadətnaməsinin (texpasportun) surəti
2. Avtonəqliyyat vasitələrinin ekoloji sinfini təsdiq edən Sertifikat

**Sürücüyə dair**

1. Sürücünün (sürücülərin) əmək müqaviləsinə dair "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış;
2. Sürücünün (sürücülərin) peşəkarlıq səriştəsi ilə bağlı hazırlıq keçməsi haqqında şəhadətnamənin surəti
3. Sürücülərinin rəqəmsal taxoqraf kartlarının surəti

**Qeyd:**

1. **BNF icazələrinin bölgüsündə Buraxılış Vəsiqəsi olan hüquqi və fiziki şəxslər iştirak edə bilər;**
2. **Təqdim edilən hər bir avtonəqliyyat vasitəsinin beynəlxalq daşımalara Buraxılış Kartı olmalıdır;**
3. **Rusiya açıq BNF icazələri yalnız Avro 6 ekoloji sinfinə aid avtonəqliyyat vasitələrinə münasibətdə bölünəcək.**